# Bayraqları bayraq, torpağı Vətən edən oğullardan biri

**Hər bir xalqın tarixində və taleyində çətin, keşməkeşli, ağır günlər olur. XX əsrin sonlarında tarix bizi də neçə-neçə sınaqlara çəkdi. Keçmişə nəzər salsaq, Azərbaycanın dəfələrlə yadellilər tərəfindən hücumlara məruz qalmasının şahidi olarıq.**

**Azərbaycan xalqı qəhrəman xalqdır. Qəhrəmanları torpaq yetirir, torpağı isə qəhrəmanlar yaşadır. Qəhrəmanlıq təsadüfi meyl və məfhum deyil. Ürəyində Vətən və dövlət sevgisi, damarında pak qanı olmayan insan qəhrəman ola bilməz. Onların hər birinin başlıca amalı Vətənə sevgi və onun düşməndən müdafiəsi idi.**

**Türk dünyasının böyük öndəri Mustafa Kamal Atatürkün dediyi kimi: "Mövzu vətəndirsə, gerisi təfərrüatdır".**



Azərbaycan xalqı Vətən torpaqları uğrunda gedən döyüşlərdə saysız-hesabsız şəhidlər verdi. Tariximizin hansı səhifəsini vərəqləsək, oradan şəhid qanı qoxar.

Biz torpaqdan boy atıb, torpaqdan ucalmışıq. Torpaq bizim anamız, ulularımızın əmanətidir. Biz də onu göz bəbəyimiz kimi qoruyub, gələcək nəsillərə əmanət verməliyik.

Böyük türk şairi demişkən: "Torpaq uğrunda ölən varsa, Vətəndir!"

Deməli, torpağı Vətənə çevirən, onun adını al qanı ilə günəşli üfüqlərə yazan onun övladlarıdır. Onlardan misilsiz rəşadət göstərən, qəhrəmanlıq zirvəsinə ucalanlar da az olmadı. Rəşadətli oğulların hər birinin sinəsində Azərbaycanımıza sevgi dolu bir ürək döyünürdü. Vətənin igid oğulları neçə dəfə ölümün üstündən keçib, düşmən üstünə yerimişdilər. Qəhrəman oğulların faciələrlə dolu həyatı bizim tariximizin qanlı yaddaşıdır.

"Ot öz kökü üstə bitər" deyib babalar. Tarixə ekskursiya edib qəhrəmanlarımızın keçdiyi şərəfli yola nəzər salanda onun bariz nümunəsini bir daha görürük.

Qəhrəmanlıq dastanımızın şərəf salnaməsini yazanlardan biri də leytenant İlham Müzəffər oğlu Əliyevdir. Qəhrəmanımızın ömür yoluna nəzər salsaq, tale yolunu vərəqləsək, bir-birindən ağrılı-acılı günlərimizin canlı portreti ilə üzləşərik.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərin fəal iştirakçısı olan İlham Müzəffər oğlu Əliyev 1962-ci il mayın 5-də Gədəbəy rayonunda anadan olub. O,1978-ci ildə orta məktəbi bitirib. İlham hər zaman dərslərini həvəslə oxuyub. Qəhrəmanım 1980-1982-ci illərdə hərbi xidmətdə olub. O, 1983-cü ildə DİN-nin təyinatı ilə İsmayıllı rayon DİŞ-nə qəbul edilib. Bir müddət keçdikdən sonra onun iş yerini Gədəbəy rayon DİŞ-nin mühafizə bölməsinə dəyişirlər.

Vətən sevdalı İlham Əliyev 1985-1987-ci illərdə Bryansk Xüsusi Orta Milis Məktəbində təhsil alıb. 1987-ci ildə Bryansk şəhərindəki xüsusi orta milis məktəbini bitirdikdən sonra həmin il Gədəbəy rayonunda sahə müvəkkili, 1989-1990-cı illərdə Gəncə şəhər DİŞ-də sahə müfəttişi, daha sonra isə cinayət-axtarış bölməsində əməliyyatçı vəzifələrində çalışıb. O, hansı vəzifədə işləməsindən asılı olmayaraq, vicdanla xalqın əmin-amanlığına, dövlətçiliyə sədaqətlə xidmət edib. İlham təbiətən çox narahat, gördüyü işə məsuliyyətlə yanaşan, polad iradəyə malik bir Azərbaycan oğludur.

O dərin biliyə malik, hər bir adamla öz dilində danışmağı bacaran, daima öz üzərində işləyən, qətiyyətli cəsur bir ziyalıdır. Yüksək döyüş və siyasi hazırlığa malik olaraq hər zaman hamının hörmətini qazanıb.

Mübariz ruhlu, igid və xeyirxah İlham Müzəffər oğlu haqsızlıqla barışmayan, sözübütöv, mərd insan idi. Gördüyü bütün işləri xidməti borcu hesab edən İlham az danışıb, çox iş görüb, çox sadə, təvazökar, qanunlara, dostluğa sadiq və sədaqətlidir. Sadə həyat tərzi keçirən cəsur Vətən oğlu dəbdəbədən, şanşöhrətdən çox uzaq bir insan idi.

Leytenant İlham Əliyev Vətənini, doğma torpağını öz canından artıq sevirdi.

1988-1990-cı illərədə torpaqlarımızın bütövlüyü uğrunda Azərbaycanın döyünən ürəyi sayılan cənnət Qarabağda başlanan qanlı müharibə minlərlə insanı yurdsuzyuvasız qoymuşdu. Qarabağın böyük dərdi var idi. Bu dərdə məlhəm isə Odlar diyarı Azərbaycanın oğulları oldu.

Tarix boyu Vətənin taleyüklü məqamlarında onu ağır sınaqlardan çıxarmaq missiyası yurdumuzun qorxmaz, fədakar, mərd və cəsur oğullarının üzərinə düşüb. Bəzən deyirlər ki, tarixi şərait qəhrəmanları yaradır, bəzən də qəhrəmanların tarix yazdığını söyləyirlər. Mərdlik, qorxmazlıq, Vətənə sadaqət hissi qəhrəman adamları birləşdirən ortaq cəhətlərdir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlananda bir çox qeyrətli soydaşlarımız kimi, İlham Müzəffər oğlu Əliyev də silaha sarılaraq ön cəbhədə vuruşmuşdu. "Müharibə", "Qarabağ" sözləri onun qəlbinə toxunmuş, uşaq dünyasına bir qəzəb toxumu səpmişdi. Onun qəlbində hər zaman Qarabağ nisgili var idi. Vətənpərvər, xalqını, millətini özü qədər sevən, dövlətinə məhəbbətlə xidmət edən İlham Əliyev ilk günlərdən qaynar bölgələrə getmiş, döyüşlərdə fəal iştirak etmişdir. O, fikrindən, inadından dönmürdü. Uşaqlıqdan qəlbində yuva qurmuş Vətən eşqi, torpaq sevgisi İlhama böyük cəsarət vermiş, qəhrəmanlığa səsləmişdi. İştirak etdiyi döyüşlərdə özünü qorxubilməz, cəsur döyüşçü kimi göstərən İlham torpaqlarımızdan yağı ayağı kəsilməyənəcən silahı yerə qoymayacağına söz vermisdi. Bir azərbaycanlı kimi İlham Əliyevin ürəyi düşmənə qarşı daima nifrət hissi ilə alovlanmışdı. Leytenant İlham Müzəffər oğlu gecə-gündüz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü barədə düşünmüşdü. O, hər zaman Vətənimizin suveren və işıqlı gələcəyinə inanmışdı.

1990-cı il avqustun 19-da leytenant İlham Əliyev torpaqlarımızın müdafiəsinə qalxaraq, Qazax rayonunun .Ermənistanla həmsərhəd Aşağı Əskipara kəndinə köməyə göndərilir. Ermənistanla həmsərhəd olan bu kənd fasiləsiz olaraq erməni yaraqlıları tərəfindən atəşə tutulur, od-alov içində yanırdı. Mübariz Vətən oğlu İlham 11 nəfərlik dəstə ilə məktəbin binasını özünə mövqe seçir, quldurların kəndə soxulmasına mane olur. İlham yoldaşlarını xilas etmək üçün düşməni özünə cəlb edir. O, dəfələrlə ölümlə üzbəüz gəlsə də, əsl hərbçi kimi vuruşur, çevikliyi, döyüş əzmi sayəsində düşmənə sarsıdıcı zərbələr endirirdi. Xalqını, vətənini çox seven İlham erməni yaraqlıları ilə gedən döyüşdə qəhrəmanlıqla vuruşur, qarın nahiyəsindən ağır yaralanaraq şəhidlik zirvəsinə ucalır.

Xalqımızın igid oğlu İlham Əliyev Gədəbəy rayonunda torpağa tapşırılır. Gədəbəy şəhərindəki 1 saylı orta məktəb gənc ömrünü doğma Vətənin ömrünə calayan, haqqın dərgahına ucalan Azərbaycanın Milli Qəhrəmanı İlham Əliyevin adını daşıyır. Həmin məktəbin ön hissəsində Milli Qəhrəmanın büstü qoyulub.

Fani dünyada 28 il yaşamaq qismət olsa da, taleyi onu ölümü ilə ölümsüzlüyə yüksəltdi. İlham Vətən üçün hünər göstərməyi, öz ləyaqəti ilə ucalmağı hər şeydən üstün tutdu. O, son nəfəsinədək dövlətçiliyimizi müdafiə etdi.

İlham Əliyev Azərbaycan hərb tarixində özünəməxsus yeri olan şəhid kimi qaldı. O, xalqının döyüşkən, qəhrəman oğlu idi.

Vətən uğrunda şəhid olmağı özünə şərəf bilən leytenant İlham Əliyev döyüşlərdə göstərdiyi fədakarlığa və şücaətə görə ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif edilib. O, həmçinin 6 iyul 1992-ci il tarixli 831 saylı fərmanla "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Ümummilli lider Heydər Əliyev Milli Qəhrəmanların ailələri ilə görüşü zamanı demişdir: "Vətənin, ölkənin müdafiəsi uğrunda şücaət, qəhrəmanlıq nümunələri göstərmiş insanlar qiymətləndirilir və unudulmur. Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim qəlbimizdən çıxmaz, unudulmaz!"

Bəli, onlar Azərbaycan xalqı, Azərbaycan dövləti var olduğu müddətdə qəlbimizdə yaşayırlar və yaşayacaqlar.

Ulu öndər Heydər Əliyevin həmişə böyük diqqət yetirdiyi Azərbaycanın Milli Qəhrəmanları və şəhid ailələri bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının gündəlik diqqətindədir.

Milli Qəhrəmanlarımızı, şəhidlərimizi xalqımızın, dövlətimizin bahalı sərvəti kimi qiymətləndirən Ali Baş Komandan İlham Əliyev cənablarının Azərbaycanın Milli Qəhrəmanlarına və şəhid ailələrinə diqqəti, qayğısı ruhi müqavimətimizi gücləndirir, qəlbimizi sevindirir, həmçinin ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

Unutmayaq ki, Milli Qəhrəmanlarımız və şəhidlər bizim qürur, and yerimizdir. Bu qəhrəmanlar vətən, xalq uğrunda şəhid olublar, bizim isə onları unutmağa heç bir haqqımız yoxdur.

Nə qədər ki. uğrunda təmənnasız rəşadət göstərməyi, hətta ölməyi bacaran övladların var, sən yaşayacaqsan, Azərbaycan! Bu yurdun hər bir daşı, cığırı, damlası və zərrəsi də müqəddəsdir. Həmişə də onun müqəddəsliyi uğrunda ər övladlar səf-səf düzülüb yağı düşmənlə döyüşə girərək ya şəhid, ya da qazi olublar. Hər parçasında minlərlə şəhid uyuyan bu torpaq igid balalardan bizə əmanətdir. Bu müqəddəs əmanəti gələcək nəsillərə toxunulmaz şəkildə çatdırmaq isə, bizim ən ümdə vəzifəmizdir.

**Qəhrəmanların əbədi var olsun Azərbaycan! Bu elə sənin özünün əbədi varlığın deməkdir.**

**Vətənimizin bütövlüyü və dövlətimizin toxunulmazlığı uğrunda qəhrəmancasına vuruşmuş bütün vətən övladlarına Allah rəhmət eləsin!**

**Vətən onları heç vaxt unutmayacaq!**

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı, Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*